# Ədəbiyyat qəzeti

www.edebiyyatqezeti.net

Azərbaycan Yazıçılar Birliyinin orqanı

80

Cümə, 14 noyabr 2014-cü il ✱ № 44 (4949) 1934-cü ildən çıxır ✱ www.ayb.az ✱ Qiyməti 30 qəpik


M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



Rembrandt

Mən dodağımla yaratdım laməkan,
İfşa etdim ney kimi sirri nəhan!

* * *

Gül solarsa qəm basar gülxanəni,
Kimsə duymaz bülbüli-divanəni.

səh. 9

## Əhməd Ağaoğlu - 145

I

**Tanrı hüzurunda**

*(Əski türk həyatından alınma bir olonqodan)*

# Tanrı dağında



Tanrı hüzuruna gedirdik.

Yolumuz çətin və qorxuncdu, neçələri qafalarını və gövdələrini vermişdilər. Dayanılmaz bir sevda məni çəkirdi. Önümdə yol göstəricim Qamlar Qamı Qaraqurunlu Göyçə idi.

O yürüyür, mən gedirdim: Tanrı qulu, Tanrı elçisi idi. Əlindəki dəf Qaplan dağı öküzünün dərisindən düzəldilmişdi. Dəfin çevrəsindəki zillər min bir səs çıxarır, min bir dil danışır. Belindəki tütək "Göy göl"dən alınmış qutlu bir qamış idi. Günəşdən və küləkdən yanmış bədənini bürüyən saysız parçalar bir tilsim və əfsuna bənzəyirdi, başından axıb sifətini örtən saçları qədim adətlərin dağınıq nağılları idi.

İndi açıq bir səhrada irəliləyirdik. Hər tərəf qum. Nə bir ağac. Nə də bircə damla su vardı! İyul günəşi bizi yandırırdı.

Fəqət, o yürüyür, mən gedirdim.

Birdən-birə qarşımıza iki qaplan çıxdı. Ac canavarlar qorxunc bir nərə ilə üzərimizə atılmaq üzərə idilər. Mən titrəyirdim. Qam güldü, belindəki qamışı ağzına aldı.

Qaplanlar durdular və qamışın səsi yüksəldikcə, Qamın barmaqları tütəyin delikləri üzərində oynadıqca gözləri süzüldü, ayaqları büküldü və birdən-birə ikisi də yerə sərilərək həsrətlə dinləməyə başladılar. Qam çalaraq yürüdü. Mən arxasınca getdim. Heyvanlar hələ də heyran-heyran dinləyirdilər.

Mən də heyrət içindəydim.

- Canım Qamım! Qamışda Tanrı qüvvəti var!

Qam çevrildi və bir hərəkətlə saçlarını üzündən ataraq:

– Doğru! - dedi, qamış Tanrı gölündən alınmışdır. Fəqət, iş onda deyildir.

– Nədədir?

– Nəfəsdə! Nəfəs, nəfəs olmalıdır!

– Bu nə deməkdir, canım Qamım?

– Bu o deməkdir ki, nəfəs içdən gəlməli, təmiz olmalı! İçdən gələn nəfəsə heç bir nəfəs dayanmaz!

– Hər nəfəs içdən gəlməzmi?

Qam güldü:

– Yalnız Tanrı üçün çəkilən nəfəslər içdən gəlir!

– Anlaya bilmədim canım Qamım!

Qam diqqətlə üzümə baxdı və bir az düşündükdən sonra:

– Bil, anla ki, məndə, səndə, bu dağlarda, daşlarda, quşlarda, ağaclarda yaşayan bir əsl vardır. Biz o əslin ayrı şəkilləriyik! Əslimiz bir olduğu üçün ayrı-ayrı görünsək də, həqiqətdə birik. Qaplanları gördünmü? Nəfəsə dayana bilmədilər. Çünki nəfəs əslə çarpdı, özünü tapdı. Birliyi oyandırdı və beləcə əslə çarpan nəfəs hər şeyi özünə ram edər! Anladınmı?

səh. 12-13



## Müstəqil Azərbaycanın ilk Məcnunu

***"Leyli və Məcnun" təkcə müsəlman Şərqində, Qafqazda yox, dünyada bənzəri olmayan bir operadır. Burada Şərq musiqisi ilə Avropa musiqisinin möhtəşəm, birmənalı sintezi var. "Leyli və Məcnun" əslində bütün dünyanı fəth eləyib. Bu opera "Koroğlu" kimi unikal bir sənət möcüzəsinin yaranmasına yol açıb. Bu opera dünya musiqi mədəniyyətinin ən parlaq əsərləri səviyyəsindədi.***

səh. 8-9

## Ədəbiyyat

***Bəs tənqid nədir? Tənqid müəllifə toxunmadan əsərə verilən qiymətdir. Tənqidçi oxucu olmamalıdır. Oxucunun şahidi olmalıdır. O, oxucunu izləməli və onun nədən həyəcanlandığını hiss etməlidir. Bəzən tənqid müəllifə çox məşğul olur. Olunan tənqidi, yalnız bir fraza ilə də xarakterizə etmək mümkündür: "Mən tənqidçi olaraq, məsləhət gördüyüm kitabı filan temperamentli insanların, filan əhvalda olması zamanı oxumağı məsləhət görürəm".***



səh. 4

## F.Kamın 150 illiyi münasibətilə



***Əgər dinsiz olmaq bəşərin bütün mümkün zövqlərindən istənildiyi qədər pay almaq məqsədi güdürsə, əmin olmalı ki, Cənabi Həqq əsla buna meydan verməz. Belə pis inanc sahiblərinin şüurundan zövq almaq qabiliyyətini dərhal silib atar. Din getdiyi andan insanın gözünə bir qara gözlük taxılar.***

***...Yer-göy atəşdən bir kəmənd olub onun boğazına keçmək üçün hər an daralar. Qəlb bütün insani məziyyətlərdən uzaqlaşar.***

səh. 9

***Türk dünyasının böyük mütəfəkkirlərindən olan Əhməd bəy Ağaoğlunun "Tanrı dağında" əsəri ilk dəfə silsilə məqalələr şəklində "Cümhuriyyət" qəzetinin 2 fevral 1939-cu il sayından etibarən çap olunmuşdur. Vəfatından sonra övladları "Ağaoğlu külliyyatı"nın I cildinə (İstanbul - 1939) "Mən nəyəm" və "Tanrı dağında" əsərlərini daxil etmişlər. Kitabın 48-69 səhifələrində yer almış bu əsərin əvvəlində müəllifin belə bir qeydi var: "Bir kərə "Cümhuriyyət" oxucularına təqdim etdiyim bu yazının çərçivəsi və çərçivənin içindəki əski türk yaşayışına aid lövhələr məşhur rus münəqqidi Seroşevskinin "Yakutlar" adındakı əsərindən alınmışdır". Sibir və Altay türklərinin mifologiyasını, dilini, dinini, adət-ənənələrini öyrənən Vatslav Leopoldoviç Seroşevskinin (1858-1945) bu kitabı ilk dəfə 1896-cı ildə Sankt-Peterburqda nəşr edilmişdir. Bu gün də öz elmi dəyərini saxlayan və qədim türk həyatının təkrarsız mənzərələrini göz önündə canlandıran həmin kitab 1983-cü ildə Yakutsk şəhərində yenidən çap olunmuşdur.***

***Ə.Ağaoğlu V.L.Seroşevskinin kitabındakı süjetlərin birindən istifadə edərək özünün "Tanrı dağında" mifoloji hekayəsini qələmə alarkən yalnız həmin mənbə ilə məhdudlaşmamış, onu bir sıra digər məxəzlərdən götürdüyü faktlarla, bilgilərlə, habelə şəxsi fantaziyası ilə daha da zənginləşdirmişdir. Qeyd edək ki, "Tanrı dağında" mifoloji hekayəsi vaxtilə prof. Əziz Mirəhmədov tərəfindən müasir Azərbaycan türkcəsinə uyğunlaşdırılmış və 2007-ci ildə prof. Vilayət Quliyevin təqdimatı, izah və şərhləri ilə Ə.Ağaoğlunun "Seçilmiş əsərləri"ndə çap edilmişdir (Bakı, 2007). Lakin müəllifin yazı üslubu və ruhu diqqətimizi bir daha cəlb etdiyindən əsərin yenidən çapına ehtiyac duyduq.***

**Mübariz Süleymanlı**

*Bir kərə "Cümhuriyyət" oxucularına təqdim etdiyim bu yazının çərçivəsi və çərçivənin içindəki əski türk yaşayışına aid lövhələr məşhur rus münəqqidi Seroşevskinin "Yakutlar" adındakı əsərindən alınmışdır. Ə.A.*

*(Əvvəli 1-ci səh.)*

– Ah canım Qamım! Eşitmədiyim şeylər söyləyirsən!

– Tanrı yolunda bu ilk dərsdir, unutma!

Yolumuza davam etdik. İndi sərt bir yoxuşu çıxırdıq. Yoxuşun üst tərəfində bir-biri üzərinə gələn bir sıra dağların ta o biri tərəfinə gedəcəkdik. Yol mənə çox uzaq göründü.

- Canım Qamım! Yolumuz uzaqdır, bunu piyada necə gedəcəyik?

Qam sərt bir baxışla:

- Tanrıya qovuşmağı asanmı sandın? Daha neçə dərələr, təpələr, neçə uçurumlar və qayalar keçmək, neçə qorxunc təhlükələr adlamaq lazım gələcək! Sonunda da Tanrının bizi qəbul edib-etməyəcəyi də bilinməz! Onun hüzuruna çıxmağa layiq ola bilmək üçün yeddi qabıq dəyişdirmək, doqquz nəfəs tükətmək istər! Sən hələ birisini belə etmədin! Yoruldunmu?

Sorduğuma peşman olmuşdum. Başımı aşağı dikdim, səsimi çıxarmadım.

Yürüdük.

İndi artıq yoxuş o qədər sərt və dik idi ki, əllərimizlə dırmanırdıq. Ara-sıra yuxarıdan qopan bir daş parçası üzərimizdən dəhşətli gurultularla yuvarlanır, ətrafı toza, dumana çevirirdi. O zamanlar Qam dönüb mənə baxırdı, fəqət, mən içimdə duyduğum qorxunu artıq göstərməməyə çalışırdım. Nəhayət, axşama doğru yoxuşun başına gəldik.

Birdən-birə önümüzə yaşıl bir yayla açıldı. Hər tərəf çiçəkli, qoxulu otlarla örtülü. Bir tərəfdə at ilxıları, inək öküz sürüləri dolaşırdı. O biri tərəfdə də yüksək bir bacadan tüstü çıxırdı.

– Bura haradır?

– Buraya Elley ulusu deyərlər. Tanrının sevdiyi bir ulus. Ulusun babası, Tanrının qulu Elleydir. Gecəni onun yanında keçirəcəyik, xeyir-duasını alacağıq!

Tüstüyə doğru yürüdük. İki adam bizi qarşıladı. Yaxınlaşaraq uğurladılar: "Tanrı qulu, Tanrı qonaqlarını salamlar, buyurunuz!" - dedilər. Evə yaxınlaşdıq. Bu, süd kimi bəyaz bir tikili, Urasa idi. Ətrafı gözəl, düzgün bir çəpərlə çevrələnmişdi. Bir tərəfdə inəklər üçün bir ağıl, atlar üçün də bir axur dururdu. Bunların arasında qocaman bir süd yalağı vardı. Bütün bunlar təmiz və parlaqdı. Çəpər boyunca bir sıra bəyaz şam ağacı başlarını göylərə qədər yüksəldirdi.

Bəmbəyaz saqqallı, uzun saçları çiyninə tökülmüş Elley tikilinin eşiyi üzərində bizi gözləyirdi.

"Kutlu olsun böyük Qam! Buyurunuz!" - dedi və dərindən Qamı salamladı.

Qam həmən diz çökdü, əl öpdü və məni göstərərək "Tanrı qatına gedir: Qatınıza gətirdim, xeyir-duanızı əsirgəməyin!" - dedi və mənə işarət etdi. Mən də əyildim. Elley bəmbəyaz əllərini başıma qoyaraq:

- Yolunuz uzun, yükünüz ağır, gücünüz az! Fəqət, könül istəyinə heç bir şey dayana bilməz! Sənə Tanrıdan yorulmaz könül eşqi və güclü istək dilərəm, dedi, alnımı öpdü.

Və Qama çevrilərək:

- Günəş batmaq üzrədir, dua çağıdır, həmən başlayaq.

Çəpərin bir köşəsində duran kımızla dolu ağac bir dolçaya doğru getdi, diz çökdü, arxasında biz də və bütün ulus xalqı da diz çökdük!

Elley əlində südlə dolu bir qaşıq tutaraq başladı:

"Bizi yaradan yiyəmiz Tanrı! Bizi saxlayan sahibimiz ana! Ey Tanrı! Ey səkkiz göyü yaradan! Ey dörd göyün sahibi ana! Ey doqquz köşəli yer! Ey səkkiz guşəli yaradıcı səhra! Ey az ormanlıqlı, qalın otlu orta dünya! Doğurdunuz bizi! Sayənizdə yaşayırıq. Ey süd kimi ağ daş üzərində oturan yaradıcı Ay-Toeen. Ey orta dünyada bu dördüncü yeri yaradan böyük sahibimiz ana! Övladın sənə yalvarır! Sən ki, batan günəşin yumşaq və dərdli görünüşlərisən! Sən ki, doğan günəşin uğur gətirən nurlarısan! Mən ki, doğru insanam, sənə xitab edirəm! Özünü göstər! Bizi yaradan, tutan sahibimiz ana! Bəslədiyimiz heyvanları saxla! Doğurduğumuz çocuqları yumşaq yataqlarda yellə! Göyü yaradan üç göyün anası! Bəyaz buludlar arasından mənə bir bax! Doğuran, yaradan sahib, dinlə! Mərhəmət et! Uruy! Uruy! Uruy!"

Mən ömrümdə belə bir dua eşitməmişdim. Həyəcanımdan qəşş içindəydim!

Elley duanı bitirər-bitirməz əlindəki kımız dolu dolçanı havaya atdı və əlinə bir qədəh - Ayah - alaraq doldurdu və yenidən duaya başladı və qədəhi də havaya atdı! Birdən-birə nə gördüm! Üç bəyaz leylək uça-uça bizə doğru gəldi. Elleyin başı üzərində dolaşdılar və dolçanın kənarına düzülərək kımız içməyə başladılar! Bu, duanın qəbulu əlaməti idi. Elley çox məmnun oldu, quşları oxşadı. Bizi qımız içməyə dəvət etdi. Fəqət, mən özümdə deyildim, hansı aləmdə yaşadığımı bilmirdim.

Qaranlıq çökmək üzrəydi. Quşlar çırpındılar, havalandılar, havalandılar, yenidən Elleyin başı üzərində üç dövrə vuraraq şərqə doğru getdilər. Elley və onunla bərabər biz də qalxdıq. Urasaya gəldik. Urasa bəmbəyaz şam dirəkləri üzərinə qurulmuş altı bucaqlı qayət böyük bir otaq idi. Həqiqətdə bu bir ev idi. Çünki bu uzun və geniş otaq dirəklərlə bölgələrə və lojalara ayrılmışdı və hər loja bir pərdə ilə qapanırdı.

**II**

Urasanın baş tərəfində "qutlu od" parıldayırdı. Onun tam qarşısındakı loja evin kişi böyüyünə məxsusdu. Bu lojanın sağındakı bölgə erkək qonaqlar üçündü. "Qutlu od"un sağ tərəfindəki loja evin xanımına məxsusdu. Onun sol tərəfindəki bölgə də qadın qonaqlara. Biz Urasaya girdiyimiz zaman evin xanımını, xidmətçilərlə bərabər orada gördük. Qadınların lojası önündə bir cəhrə və bir yığın yun yumaqlar vardı. Bir az o tərəfdə də ələklər üzərinə toplanmış bəyaz quş tükləri vardı. "Qutlu od"un yanındakı ocağın üzərində dəmir qazanlar içində nəsə qaynayırdı.

Ev adamları bizi görər-görməz:

- Qutlu olsun - deyə salamladılar.

Qam cavab verdi və düz qonaq lojasına doğru yürüdü. Mən də arxasından getdim, anladım ki, bura eyni zamanda bizim yataqlarımızdır.

Bir az sonra otağa gülüşmələr və gurultularla bir dəstə gənc qız və dəliqanlı erkəklər girdi, fəqət, bizi görər-görməz həmən özlərini topladılar və birdən uğurladılar. Anlaşıldı ki, qonşu ulusdan müsafirlər gəlmişlər. Qam mənə doğru əyildi.

- Bu gecə maraqlı şeylər görəcəyik. Bu dəliqanlıların deyişmələrini dinləyəcəyik - dedi.

Yemək zamanı gəlincə Elley "Qutlu od" üzərinə təzə kımız çilədi və üç kərə Uruy! Uruy! Uruy! - deyə hayqırdı. Bütün otaqdakılar da təkrar etdilər. Odanın ortasına sərilmiş bir bezin ətrafına yerləşdik. O çağa qədər mən bu qədər dadlı bir at əti şorbası və at südü qaymağı yeməmişdim.

Yeməkdən sonra yenə od üzərinə kımız səpildi və hər kəs yerinə döndü.

Fəqət, dəliqanlılar ortada qalmışdılar. Bunlar iki tərəf olmuşdular: erkək və qız.

Əvvəla erkəklər aldılar:

– Nə etdik ki? Günahımız nə?
– Al yanaqdan bir öpücük istədik.
– Verilmədi! Zorumuzla aldıq.
– Bu bizim haqqımız!

Qızlar cavab verdilər:

– İstədiyiniz al yanaq deyil, cehizdir.

– Əlvan rəngli marallar, ildırımyürüşlü atlar.

– Aldığınız öpücük deyil, ənsənizə toxmaqdır.

– Arxanıza da təpiklər, ey dəliqanlılar!

Hər tərəfdən qəhqəhələr yüksəldi. Qələbə qızlarda qaldı. Bir neçə daha belə deyişmələr oldu. Sonra sıra bilməcələrə (tapmaca) gəldi.

*Boz çöl dənizində oturan*
*Şimal dənizinə bağlanan*
*Yanları batı dənizinə varan*
*Ətəkləri cənub dənizinə çarpan*
*İşığı Kil dağı*
*Üzü orta yayla*
*Üstü işıldayan göy*
*Köksü oddan günəş*



*Biliniz baxalım bu nədir?*

Oğlanlar həmən:

Türk yurdu! Türk yurdu, deyə bağırışdılar! Qızlar etiraz edə bilmədilər. İndi sıra oğlanlara gəlmişdi. Oğlanlar aldı:

*Bəyaz saçan ayı var,*
*Dəyişən gecələri*
*Hızlı axan suları var,*
*Sakit dərin sular,*
*Düz, gözəl ormanları var,*
*O tərəfi görünməz*
*Uzunluğu ölçülməz*
*Çiçəkli otlar daşıyan*
*Düz yerləri var!*

Qızlar düşündülər və verilmiş müddət əsnasında cavabı tapmadıqlarından, oğlanlar birlikdə: "Səkkiz köşəli ana kainat" - deyə bağırdılar.

Bilməcə müsabiqəsi də bitdikdən sonra Elleyin işarəsi ilə gənclər və qadınlar otağı tərk etdilər və ixtiyar Tanrı qulu bizi qutluyaraq yatmağa çəkildi. Ertəsi gün günəşlə bərabər qalxdıq və Elleyin xeyir-duasını alaraq yolumuza davam etdik.

İndi bir tərəfi dik qaya və bir tərəfi də dərin bir uçurum olan bir eniş enirdik. Uçurum başımı gicəlləndirirdi. Ta dibindən yüksələn şam ağacları bizə qədər uzanıb gəlirdi. Başqa yerdə ağacların arasında ceyranlar və marallar otlayırdılar. Rəngli quşlar ötərək ağacların budaqları üzərində uçuşurdular. Yolumuz o qədər dar və dik idi ki, bəzən sürünmək lazım gəlirdi. Ara-sıra ayağımızın altından qaçan daşlar uçurumun içinə doğru yuvarlanır, qorxunc gurultular çıxarır, heyvanları və quşları hürküdürdü.

Nəhayət, günortaya doğru bu enişi də endik. Önümüzə uçurumun dibindən axan bir çay gəldi.

Mən ömrümdə bu qədər parlaq bir su görməmişdim. Bir ovuc alıb ağzıma götürdüm: dadı rəngindən gözəl.

– Aman nə gözəl su, - dedim.

– Əvət! Tanrı suyu!

– Bu nə deməkdir?

– Tanrı dağına qədər hələ belə yeddi çay görəcəyik. Bunlar Yeddiqardaş çaydır. Hamısı başlarını Tanrı dağından alırlar. Tanrıya qovuşmaq istəyənlər bunlarda yuyunurlar, ruhları təmizlənir, qəlbləri saflaşır və Tanrı hüzuruna çıxmağa layiq olurlar. İndi sən bu çayda yuyunmalısan!

Həmən soyundum və çaya atıldım.

Mən suda yuyunduqca çayın rəngi dəyişir, bulanır və xoşagəlməz bir qoxu duymağa başlayırdım.

Heyrət etdim.

Qama suyu göstərərək:

– Nədən bulanır və bu qoxu nədir? - deyə sordum.

– Təmizlənirsən! Səndəki pislik çıxır.

Mən bu qədər kirli olduğuma çaşdım.

Qam dedi ki:

- Vücud kiri deyil, ruh kiridir! Ruh kiri vücud kirindən də ağır olur. Bu pis qoxu o

